**“Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikasının Nazirlər Kabineti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikasının Nazirlər Kabineti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında” 2022-ci il oktyabrın 11-də Bişkek şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 noyabr 2022-ci il
640-VIQ

**Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikasının Nazirlər Kabineti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında**

**SAZİŞ**

Bundan sonra “Tərəflər” adlandırılacaq Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti,

bitki karantini sahəsində səmərəli əməkdaşlığı inkişaf etdirmək və Tərəflərin dövlət ərazilərinin karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olması və yayılmasından qorunması üçün bütün zəruri tədbirləri görmək ilə bağlı qarşılıqlı istəyi nəzərə alaraq,

1951-ci il 6 dekabr tarixli (1997-ci ilin redaksiyasında) Bitki karantini və mühafizəsi haqqında Beynəlxalq Konvensiyanın müddəalarına əsaslanaraq, aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər dövlətlərinin qanunvericiliyinə və beynəlxalq öhdəliklərinə uyğun olaraq, öz dövlətlərinin fitosanitar təhlükəsizliyini təmin etmək məqsədilə Tərəflərin dövlət ərazilərinə karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısını almaq üçün bitki karantini sahəsində əməkdaşlıq edirlər.

Bu Sazişin müddəaları torpaq, torpaqlı bitkilər və karantin tətbiq edilən zərərli orqanizmlərin gizlənməsi üçün sığınacaq rolunu oynaya və ya onların yayılmasına səbəb ola biləcək istənilən digər orqanizmlər, obyekt və ya materiallar daxil olmaqla, bütün karantin nəzarətində olan məhsullara, o cümlədən hədiyyə qismində və ya elmi məqsədlər üçün gətirilən, habelə Tərəflərin dövlətlərinin diplomatik, konsulluq və digər nümayəndəlikləri üçün nəzərdə tutulan karantin nəzarətində olan məhsullara şamil edilir.

**Maddə 2**

Bu Sazişin məqsədləri üçün aşağıdakı terminlərdən istifadə olunur:

karantin tətbiq edilən zərərli orqanizm - Tərəflərin dövlət ərazilərində mövcud olmayan və ya məhdud dairədə yayılan və karantin tətbiq edilən zərərli orqanizmlərin rəsmi siyahılarına daxil edilmiş bitki zərərvericiləri, bitki patogenləri və alaq otları;

karantin nəzarətində olan məhsullar (karantin nəzarətində olan yüklər, karantin nəzarətində olan materiallar, karantin nəzarətində olan mallar) - karantin nəzarətində olan məhsulların milli siyahılarına daxil edilmiş, fitosanitar karantin nəzarətinə (yoxlamasına) tabe olan, karantin obyektlərinin daşıyıcısı ola bilən və (və ya) onların yayılmasına şərait yarada bilən və onlara münasibətdə fitosanitar karantin tədbirlərinin görülməsi zəruri olan bitkilər, bitki mənşəli məhsullar, yüklər, torpaq, orqanizmlər, materiallar, taxta qablaşdırma materialları və qablaşdırmalar.

**Maddə 3**

Bu Sazişin həyata keçirilməsi üzrə səlahiyyətli orqanlar aşağıdakılardır:

Azərbaycan Respublikası Hökuməti tərəfindən - Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi;

Qırğız Respublikasının Nazirlər Kabineti tərəfindən - Qırğız Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitki Karantini, Mühafizəsi və Kimyalaşma Departamenti.

**Maddə 4**

Tərəflər aşağıdakı istiqamətlər üzrə əməkdaşlıq həyata keçirirlər:

- yeni karantin tətbiq edilən zərərli orqanizmlərin meydana gəlməsi və yayılması, habelə onlarla mübarizə tədbirləri və Tərəflərin dövlət ərazilərində yayılmasının qarşısının alınması tədbirləri barədə məlumat mübadiləsi;
- Tərəflərin dövlət ərazilərində qüvvədə olub karantin nəzarətində olan məhsulların idxalı, ixracı və tranzitini tənzimləyən rəsmi sənədlərin mübadiləsi, habelə onlara edilmiş bütün dəyişikliklər barədə bir-birinin məlumatlandırılması;
- fitosanitar karantin təhlükəsizliyinin təmin edilməsi sahəsində bir-birinə elmi, metodiki və texniki yardım göstərilməsi, birgə elmi tədqiqatların aparılması;
- Tərəflərin bitki karantini sahəsində mütəxəssis və ekspertlərinin peşəkarlığının artırılması;
- texniki cəhətdən əsaslandırılmış və şəffaflıq, ayn-seçkiliyə və gizli məhdudiyyətlərə yol verilməməsi prinsiplərinə əsaslanan fitosanitar tədbirlərin həyata keçirilməsi;
- Tərəflərin karantin tətbiq edilən zərərli orqanizmlərin rəsmi siyahılarına
edilən bütün dəyişikliklər barədə məlumat mübadiləsi.

**Maddə 5**

Bir Tərəfin dövlət ərazisindən digər Tərəfin dövlət ərazisinə daşınan və ya bir Tərəfin dövlət ərazisi vasitəsilə digər Tərəfin dövlət ərazisinə tranzit yolu ilə daşınan karantin nəzarətində olan məhsulların hər bir partiyası, beynəlxalq nümunəli xüsusi markalanma işarəsi olduqda taxta qablaşdırma və bərkitmə materiallarının idxalı hallan istisna olunmaqla, idxal edən Tərəfin dövləti tərəfindən müəyyən edilmiş fitosanitar karantin tələblərinə uyğun olaraq, dövlətinin ərazisindən karantin nəzarətində olan məhsulların ixrac olunduğu Tərəfin səlahiyyətli orqanı tərəfindən verilən fitosanitar sertifikatla müşayiət olunur.

Tərəflərin səlahiyyətli orqanları karantin tətbiq edilən zərərli orqanizmlərin yayılmasına potensial risk yarada bilməyəcək şəkildə emal edilmiş karantin nəzarətində olan məhsulların partiyalarına, o cümlədən qablaşdırma materiallarına və ya fitosanitar tədbirlərin həyata keçirilməsini tələb etməyən digər materialların partiyalarına fitosanitar sertifikatlar tələb etməməlidirlər.

Fitosanitar sertifikatın mövcudluğu Tərəflərin səlahiyyətli orqanlarının, öz dövlətlərinin fitosanitar karantin tələblərinə uyğun olaraq karantin nəzarətində olan materiallara fitosanitar nəzarətini həyata keçirmək hüququnu istisna etmir.

Tərəflər bu Saziş imzalandığı tarixdən etibarən 10 (on) gün ərzində fitosanitar sertifikatlarının nümunələrinin surətlərini mübadilə edirlər. Tərəflərdən biri öz fitosanitar sertifikatında dəyişikliklər və/və ya əlavələr etdiyi halda, həmin Tərəf onların təsdiq olunduğu tarixdən etibarən 10 (on) gün ərzində digər Tərəfə fitosanitar sertifikatının yenilənmiş nümunəsini göndərir.

**Maddə 6**

Tərəflər, qarşılıqlı razılığa əsasən, qanunvericiliklə müəyyən edilmiş qaydada qüvvəyə minmiş Tərəflərin dövlətlərinin iştirakçısı olduqları beynəlxalq müqavilələrə uyğun olaraq, bir Tərəfin dövlət ərazisindən digər Tərəfin dövlət ərazisinə daşınan karantin nəzarətində olan materialların istehsalı, emalı, saxlanması və qablaşdırılması yerlərini, eləcə də fitosanitar nəzarət sistemlərini birgə yoxlaya bilərlər.

**Maddə 7**

Tərəflərin səlahiyyətli orqanları karantin nəzarətində olan məhsulların ixrac partiyası öz dövlətlərinin ərazisindən ixrac olunana qədər onun fitosanitar vəziyyəti ilə bağlı məsuliyyət daşıyırlar.

Karantin nəzarətində olan məhsulların bir Tərəfin dövlət ərazisindən digər Tərəfin dövlət ərazisinə idxalı, ixracı və ya tranziti müvafiq Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq müəyyən edilən dövlət sərhədindən buraxılış məntəqələrində həyata keçirilir.

**Maddə 8**

Fitosanitar karantin nəzarətinin həyata keçirilməsi zamanı karantin nəzarətində olan məhsulların partiyalarında karantin tətbiq edilən zərərli orqanizmlərin aşkarlanması halında idxalçı Tərəfin səlahiyyətli orqanı onu zərərsizləşdirmək, bu mümkün olmadıqda isə qəbul edilmiş fitosanitar karantin tədbirləri və onların səbəbləri barədə bilavasitə digər Tərəfin səlahiyyətli orqanına bildiriş göndərməklə, yoluxmuş partiyanı məhv etmək və ya 1 (bir) gün ərzində ixracatçıya geri qaytarmaq hüququna malikdir.

**Maddə 9**

Karantin nəzarətində olan məhsulların ixracı zamanı karantin tətbiq edilən zərərli orqanizmlərdən azad qablaşdırma istifadə edilməlidir. Qablaşdırma və qablaşdırma materialları torpaqdan azad olmalıdır. Ot, saman, püfə, taxta kəpəyi, yarpaq və digər oxşar bitki mənşəli materiallardan qablaşdırma kimi istifadə edilə bilməz.

Karantin nəzarətində olan məhsulların daşınmasında istifadə olunan nəqliyyat vasitələri hərtərəfli təmizlənməli və zərurət yarandıqda həm də zərərsizləşdirilməlidir.

**Maddə 10**

Tərəflərin səlahiyyətli orqanları bu Sazişin icrası ilə bağlı praktiki məsələləri həll etmək, həmçinin bitki karantini sahəsində qarşılıqlı elmi və praktiki maraq doğuran məsələlər üzrə işçi görüşlər, seminarlar və təcrübə mübadilələri keçirmək üçün bir-biriləri ilə birbaşa əlaqə qura bilərlər.

Konkret əməkdaşlıq tədbirlərinin və onların həyata keçirilmə müddətlərinin müəyyənləşdirməsi üçün Tərəflərin səlahiyyətli orqanları ayrıca Tədbirlər Planı razılaşdıra bilərlər.

Tərəflərin səlahiyyətli orqanları ildə bir dəfədən az olmamaqla, birgə iclaslar keçirir və ya nümayəndə heyətlərinin səfərlərini təşkil edirlər. Mütəxəssislərinin səyahət və qalma xərclərini göndərən Tərəf təmin edir.

İclasın keçirilmə yeri, müddəti və proqramı Tərəflərin səlahiyyətli orqanlarının razılığı əsasında müəyyən edilir.

**Maddə 11**

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən, habelə bitki karantini və mühafizəsi üzrə beynəlxalq təşkilatlara üzvlüyündən irəli gələn hüquq və öhdəliklərinə təsir göstərmir.

**Maddə 12**

Tərəflər arasında bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə bağlı yaranan fikir ayrılıqları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

**Maddə 13**

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə ayrıca protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr edilə bilər. Həmin

protokollar bu Sazişin ayrılmaz tərkib hissəsi olub onun 14-cü maddəsi ilə müəyyən edilmiş qaydada qüvvəyə minir.

**Maddə 14**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış onun qüvvəsini dayandırmaq niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərmədiyi təqdirdə, bu Sazişin müddəti avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bişkek şəhərində 11 oktyabr 2022-ci ildə, hər biri Azərbaycan, qırğız və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsiri və tətbiqi zamanı fikir ayrılıqları yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətndən istifadə edəcəklər.

| **Azərbaycan Respublikası Hökuməti adından** | **Qırğız Respublikası Nazirlər Kabineti adından** |
| --- | --- |
| *(imza)* | *(imza)* |